| | |
|---|---|
| **AKTIN NÖVÜ** | **AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI** |
| **QƏBUL EDİLDİYİ TARİX** | **12.12.2019** |
| **QEYDİYYAT NÖMRƏSİ** | **475** |
| **ADI** | **Bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyalarının yaradılması və əsasnaməsinin təsdiq edilməsi haqqında** |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | **Xalq Qəzeti (Dərc olunma tarixi: 17-12-2019, Nəşr Nömrəsi: 280), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-12-2019, Nəşr nömrəsi: 12, Maddə nömrəsi: 2059)** |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | **17.12.2019** |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | **060.010.000** |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | **14201912120475** |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | **18.12.2019** |

**Bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyalarının yaradılması və əsasnaməsinin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 9 oktyabr tarixli 3287 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"nın 1.13-cü bəndinə və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 233 nömrəli Fərmanının 1.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. İqtisadiyyatın müxtəlif sahələrində işçilərin peşə bacarıqlarına ehtiyaclarının öyrənilməsi, peşə və kvalifikasiya standartlarının hazırlanması, yenidən hazırlanması və ya müddətinin uzadılması ilə bağlı müzakirələrin keçirilməsi, təkliflərin verilməsi və qərarların qəbul edilməsi istiqamətində dövlət hakimiyyəti orqanları, təhsil müəssisələri, işəgötürənlər və onların birlikləri, peşə assosiasiyaları və həmkarlar ittifaqı birlikləri tərəfindən həyata keçirilən fəaliyyətlərin əlaqələndirilməsi məqsədilə Bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyaları yaradılsın və tərkibləri təsdiq edilsin (1 nömrəli əlavə).

2. "Bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyasının Əsasnaməsi" təsdiq edilsin (2 nömrəli əlavə).

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 12 dekabr 2019-cu il
475

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2019-cu il 12 dekabr tarixli 475 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**1 nömrəli əlavə**

## Bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyalarının tərkibi

### 1. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyası

**Sədr:** Komissiyanın iclasında səsvermə hüququ olan üzvlər arasından bir il müddətinə növbə ilə seçilir.
**Üzvlər:**
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti – bir nəfər;
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi* – bir nəfər;[1]
- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Təhsil Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi – bir nəfər;
- Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi – bir nəfər;
- Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Dövlət Aqrar Universiteti – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası – bir nəfər (səsvermə hüquqlu);
- müvafiq sahədə fəaliyyət göstərən peşə assosiasiyası (assosiasiyalar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – bir nəfər;
- müvafiq sahədə fəaliyyət göstərən üç aparıcı müəssisə (müəssisələr Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – üç nəfər.

### 2. Mədənçıxarma sənayesində bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyası

**Sədr:** Komissiyanın iclasında səsvermə hüququ olan üzvlər arasından bir il müddətinə növbə ilə seçilir.
**Üzvlər:**
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti – bir nəfər;
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi* – bir nəfər;
- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);

- Azərbaycan Respublikasının Təhsil Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi – bir nəfər;
- Azərbaycan Respublikasının Energetika Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Dövlət Neft və Sənaye Universiteti – bir nəfər (səsvermə hüquqlu);
- Bakı Ali Neft Məktəbi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Texniki Universiteti – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası – bir nəfər (səsvermə hüquqlu);
- müvafiq sahədə fəaliyyət göstərən peşə assosiasiyası (assosiasiyalar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – bir nəfər;
- müvafiq sahədə fəaliyyət göstərən üç aparıcı müəssisə (müəssisələr Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – üç nəfər.

### 3. Emal sənayesində bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyası

**Sədr:** Komissiyanın iclasında səsvermə hüququ olan üzvlər arasından bir il müddətinə növbə ilə seçilir.
**Üzvlər:**
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti – bir nəfər;
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi* – bir nəfər;
- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Təhsil Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi – bir nəfər;
- Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Texnologiya Universiteti – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası – bir nəfər (səsvermə hüquqlu);
- müvafiq sahədə fəaliyyət göstərən peşə assosiasiyası (assosiasiyalar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – bir nəfər;
- müvafiq sahədə fəaliyyət göstərən üç aparıcı müəssisə (müəssisələr Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – üç nəfər.

### 4. Elektrik enerjisi, qaz, hava, su, buxar təchizatı və tullantıların təmizlənməsi sahələrində bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyası

**Sədr:** Komissiyanın iclasında səsvermə hüququ olan üzvlər arasından bir il müddətinə növbə ilə seçilir.
**Üzvlər:**
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti – bir nəfər;
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi* – bir nəfər;
- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Təhsil Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi – bir nəfər;
- Azərbaycan Respublikasının Energetika Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi - bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Texniki Universiteti – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası – bir nəfər (səsvermə hüquqlu);
- müvafiq sahədə fəaliyyət göstərən peşə assosiasiyası (assosiasiyalar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – bir nəfər;
- müvafiq sahədə fəaliyyət göstərən üç aparıcı müəssisə (müəssisələr Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – üç nəfər.

### 5. Tikinti sahəsində tikintidə bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyası

**Sədr:** Komissiyanın iclasında səsvermə hüququ olan üzvlər arasından bir il müddətinə növbə ilə seçilir.
**Üzvlər:**
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti – bir nəfər;
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi* – bir nəfər;
- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Təhsil Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi – bir nəfər;
- Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Memarlıq və İnşaat Universiteti – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası – bir nəfər (səsvermə hüquqlu);
- müvafiq sahədə fəaliyyət göstərən peşə assosiasiyası (assosiasiyalar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – bir nəfər;
- müvafiq sahədə fəaliyyət göstərən üç aparıcı müəssisə (müəssisələr Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – üç nəfər.

**6. Nəqliyyat və məişət texnikası vasitələrinin təmiri sahələrində bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyası**

**Sədr:** Komissiyanın iclasında səsvermə hüququ olan üzvlər arasından bir il müddətinə növbə ilə seçilir.
**Üzvlər:**
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti – bir nəfər;
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi* – bir nəfər;
- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Təhsil Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi – bir nəfər;
- Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Texniki Universiteti – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Dövlət İqtisad Universiteti – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası – bir nəfər (səsvermə hüquqlu);
- müvafiq sahədə fəaliyyət göstərən peşə assosiasiyası (assosiasiyalar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – bir nəfər;
- müvafiq sahədə fəaliyyət göstərən üç aparıcı müəssisə (müəssisələr Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – üç nəfər.

**7. Nəqliyyat və logistika sahəsində bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyası**

**Sədr:** Komissiyanın iclasında səsvermə hüququ olan üzvlər arasından bir il müddətinə növbə ilə seçilir.
**Üzvlər:**
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti – bir nəfər;
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi* – bir nəfər;
- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Təhsil Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi – bir nəfər;
- Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi - bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Texniki Universiteti – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Dövlət İqtisad Universiteti – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası – bir nəfər (səsvermə hüquqlu);
- müvafiq sahədə fəaliyyət göstərən peşə assosiasiyası (assosiasiyalar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – bir nəfər;
- müvafiq sahədə fəaliyyət göstərən üç aparıcı müəssisə (müəssisələr Azərbaycan Respublikasının Əmək və Əhalinin

Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – üç nəfər.

### 8. Turizm, istirahət və əyləncə sahələrində bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyası

**Sədr:** Komissiyanın iclasında səsvermə hüququ olan üzvlər arasından bir il müddətinə növbə ilə seçilir.
**Üzvlər:**
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti – bir nəfər;
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi* – bir nəfər;
- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Təhsil Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi – bir nəfər;
- Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Turizm və Menecment Universiteti – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası – bir nəfər (səsvermə hüquqlu);
- müvafiq sahədə fəaliyyət göstərən peşə assosiasiyası (assosiasiyalar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – bir nəfər;
- müvafiq sahədə fəaliyyət göstərən üç aparıcı müəssisə (müəssisələr Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – üç nəfər.

### 9. İctimai iaşə və qida sənayesində bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyası

**Sədr:** Komissiyanın iclasında səsvermə hüququ olan üzvlər arasından bir il müddətinə növbə ilə seçilir.
**Üzvlər:**
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti – bir nəfər;
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi* – bir nəfər;
- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Təhsil Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi – bir nəfər;
- Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Texnologiya Universiteti – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Dövlət İqtisad Universiteti – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası – bir nəfər (səsvermə hüquqlu);
- müvafiq sahədə fəaliyyət göstərən peşə assosiasiyası (assosiasiyalar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – bir nəfər;
- müvafiq sahədə fəaliyyət göstərən üç aparıcı müəssisə (müəssisələr Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – üç nəfər.

### 10. Ticarət, biznesin idarə olunması və fərdi xidmətlərin göstərilməsi sahəsində bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyası

**Sədr:** Komissiyanın iclasında səsvermə hüququ olan üzvlər arasından bir il müddətinə növbə ilə seçilir.
**Üzvlər:**
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti – bir nəfər;
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi* – bir nəfər;
- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Təhsil Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi – bir nəfər;
- Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi – bir nəfər (səsvermə hüquqlu);

- Azərbaycan Dövlət İqtisad Universiteti – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Turizm və Menecment Universiteti – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası – bir nəfər (səsvermə hüquqlu);
- müvafiq sahədə fəaliyyət göstərən peşə assosiasiyası (assosiasiyalar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – bir nəfər;
- müvafiq sahədə fəaliyyət göstərən üç aparıcı müəssisə (müəssisələr Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – üç nəfər.

## 11. İnformasiya-kommunikasiya texnologiyaları və rabitə sahələrində bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyası

**Sədr:** Komissiyanın iclasında səsvermə hüququ olan üzvlər arasından bir il müddətinə növbə ilə seçilir.
**Üzvlər:**
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti – bir nəfər;
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi* – bir nəfər;
- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Təhsil Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi – bir nəfər;
- Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Texniki Universiteti – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Dövlət İqtisad Universiteti – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası – bir nəfər (səsvermə hüquqlu);
- müvafiq sahədə fəaliyyət göstərən peşə assosiasiyası (assosiasiyalar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – bir nəfər;
- müvafiq sahədə fəaliyyət göstərən üç aparıcı müəssisə (müəssisələr Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – üç nəfər.

## 12. Maliyyə, sığorta və daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahəsində bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyası

**Sədr:** Komissiyanın iclasında səsvermə hüququ olan üzvlər arasından bir il müddətinə növbə ilə seçilir.
**Üzvlər:**
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti – bir nəfər;
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi* – bir nəfər;
- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Təhsil Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi – bir nəfər;
- Azərbaycan Respublikasının Maliyyə Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti – bir nəfər;
- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti – bir nəfər;
Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Dövlət İqtisad Universiteti – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası – bir nəfər (səsvermə hüquqlu);
- müvafiq sahədə fəaliyyət göstərən peşə assosiasiyası (assosiasiyalar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – bir nəfər;
- müvafiq sahədə fəaliyyət göstərən üç aparıcı müəssisə (müəssisələr Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – üç nəfər.

## 13. Təhsil, elm, mədəniyyət və incəsənət sahələrində bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyası

**Sədr:** Komissiyanın iclasında səsvermə hüququ olan üzvlər arasından bir il müddətinə növbə ilə seçilir.
**Üzvlər:**
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti

– bir nəfər;

- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi* – bir nəfər;

- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);

- Azərbaycan Respublikasının Təhsil Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);

- Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi – bir nəfər;

- Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);

- Azərbaycan Milli Elmlər Akademiyası – bir nəfər (səsvermə hüquqlu);

- Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi – bir nəfər (səsvermə hüquqlu);

- Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti – bir nəfər (səsvermə hüquqlu);

- Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) – bir nəfər (səsvermə hüquqlu);

- Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası – bir nəfər (səsvermə hüquqlu);

- müvafiq sahədə fəaliyyət göstərən peşə assosiasiyası (assosiasiyalar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – bir nəfər;

- müvafiq sahədə fəaliyyət göstərən üç aparıcı müəssisə (müəssisələr Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – üç nəfər.

**14. Səhiyyə və sosial xidmətlər sahələrində bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyası**

**Sədr:** Komissiyanın iclasında səsvermə hüququ olan üzvlər arasından bir il müddətinə növbə ilə seçilir.

**Üzvlər:**

- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);

- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti – bir nəfər;

- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi* – bir nəfər;

- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);

- Azərbaycan Respublikasının Təhsil Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);

- Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi – bir nəfər;

- Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi – bir nəfər (səsvermə hüquqlu);

- Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi – bir nəfər (səsvermə hüquqlu);

- Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi – bir nəfər (səsvermə hüquqlu);

- Azərbaycan Tibb Universiteti – bir nəfər (səsvermə hüquqlu);

- Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) – bir nəfər (səsvermə hüquqlu);

- Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası – bir nəfər (səsvermə hüquqlu);

- müvafiq sahədə fəaliyyət göstərən peşə assosiasiyası (assosiasiyalar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – bir nəfər;

- müvafiq sahədə fəaliyyət göstərən üç aparıcı müəssisə (müəssisələr Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müəyyən edilir) – üç nəfər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2019-cu il 12 dekabr tarixli 475 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**2 nömrəli əlavə**

**Bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyasının**

## ƏSASNAMƏSİ

### 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə Bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyasının (bundan sonra – Komissiya) təşkilinin və fəaliyyətinin hüquqi əsaslarını müəyyən edir.

1.2. Komissiya iqtisadiyyatın müxtəlif sahələrində işçilərin peşə bacarıqlarına ehtiyaclarının öyrənilməsi, peşə və kvalifikasiya standartlarının (bundan sonra – standart) hazırlanması, yenidən hazırlanması və ya müddətinin uzadılması ilə bağlı müzakirələrin keçirilməsi, təkliflərin verilməsi və qərarların qəbul edilməsi istiqamətində dövlət hakimiyyəti orqanları, təhsil müəssisələri, işəgötürənlər və onların birlikləri, peşə assosiasiyaları və həmkarlar ittifaqı birlikləri tərəfindən həyata keçirilən fəaliyyətləri əlaqələndirən məşvərətçi qrupdur. Komissiya öz işini kollegiallıq və aşkarlıq prinsipləri əsasında qəbul etdiyi qərarlara uyğun qurur.

1.3. Komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının Əmək Məcəlləsini, "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununu, təhsil və əmək münasibətləri haqqında qanunvericiliyi, digər qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.4. Komissiya öz fəaliyyətini ictimai əsaslarla həyata keçirir.

1.5. Komissiya üzərində öz adı olan blanklara və möhürə malikdir.

1.6. Komissiyanın katibliyi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində (bundan sonra –Nazirlik) yerləşir.

## 2. Komissiyanın məqsədi və vəzifələri

2.1. Komissiyanın əsas məqsədi iqtisadiyyatın müxtəlif sahələrində işçilərin peşə bacarıqlarına ehtiyaclarının öyrənilməsi, standartın hazırlanması, yenidən hazırlanması və ya müddətinin uzadılması ilə bağlı müzakirələrin keçirilməsi, təkliflərin verilməsi və qərarların qəbul edilməsi istiqamətində dövlət hakimiyyəti orqanları, təhsil müəssisələri, işəgötürənlər və onların birlikləri, peşə assosiasiyaları və həmkarlar ittifaqı birlikləri tərəfindən həyata keçirilən fəaliyyətləri əlaqələndirməkdən ibarətdir.

2.2. Komissiyanın vəzifələri aşağıdakılardır:

2.2.1. əmək bazarında strateji məşğulluq sahələrini və prioritet peşələri müəyyən edir;

2.2.2. əmək bazarında işçilərin peşə bacarıqlarına ehtiyaclarını müəyyən edir;

2.2.3. əmək bazarı ilə bağlı tədqiqatların aparılmasında, tələb və təklifin müəyyən olunmasında iştirak edir;

2.2.4. standartın hazırlanması, yenidən hazırlanması və ya müddətinin uzadılması haqqında qərar qəbul edir;

2.2.5. standartın layihəsinə baxır, müzakirə edir və təkliflər verir;

2.2.6. standartın təsdiq edilməsi ilə bağlı qərarı Nazirliyə təqdim edir;

2.2.7. işəgötürənlərlə əməkdaşlıq edir;

2.2.8. işçi qüvvəsinin hazırlanmasının təşviq edilməsi sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq edir;

2.2.9. Məşğulluq Təsnifatının təkmilləşdirilməsi üçün təkliflər verir;

2.2.10. Peşə təhsili üzrə ixtisasların Təsnifatının təkmilləşdirilməsi üçün təkliflər verir.

## 3. Komissiyanın hüquqları

3.1. Komissiya öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

3.1.1. öz vəzifələrini yerinə yetirmək üçün müəssisə, idarə və təşkilatlardan zəruri məlumatları almaq;

3.1.2. əmək bazarında ehtiyaclarının müəyyən edilməsi ilə bağlı sənəd layihələrinin hazırlanmasında iştirak etmək;

3.1.3. öz səlahiyyətləri daxilində müvafiq sahə üzrə standartın hazırlanmasında iştirak etmək;

3.1.4. öz iclaslarına müəssisə, idarə və təşkilatların nümayəndələrini dəvət etmək;

3.1.5. təhsil və məşğulluq sahəsində mövcud qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq;

3.1.6. qəbul olunması üçün təqdim edilən standartın layihəsini qəbul etmək və ya qəbul etməkdən imtina etmək;

3.1.7. standartın yeniləşdirilməsi tarixini 5 (beş) ildən gec olmamaqla müəyyən etmək;

3.1.8. işçi qüvvəsinin səriştəsinin artırılması istiqamətində tədbirlərin əlaqələndirilməsi məqsədilə bacarıqların inkişaf etdirilməsi üzrə digər sahə komissiyaları ilə əməkdaşlıq etmək;

3.1.9. fəaliyyət istiqamətlərinə uyğun sahələrdə hökumət və donor təşkilatlar tərəfindən maliyyələşdirilən layihələrdə tərəfdaş kimi iştirak etmək.

## 4. Komissiyanın təşkilati strukturu və fəaliyyətinin təşkili

4.1. Komissiyanın tərkibi Komissiyanın sədrindən, üzvlərindən və katibindən ibarətdir.

4.2. Komissiyanın üzvü olan hər bir təşkilat Komissiyada bir nümayəndə ilə təmsil olunur. Hər bir üzv təşkilatın nümayəndəsi həmin təşkilatın Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinə yazılı müraciəti əsasında təyin edilir. Üzv təşkilatın nümayəndəsi Komissiyanın üç ardıcıl iclasında iştirak etmədiyi təqdirdə, Nazirlik onun dəyişdirilməsi üçün həmin üzv təşkilata müraciət etmək hüququna malikdir.

4.3. Hər bir üzv təşkilat öz nümayəndəsini 1 (bir) il müddətinə təyin edir. Müddətin sonunda eyni şəxs yenidən təyin edilə bilər.

4.4. Hər bir təşkilatın nümayəndəsi müvafiq sahədə işçi qüvvəsinin idarə olunması və inkişafı ilə məşğul olan rəhbər şəxs və ya işçi ola bilər.

4.5. Komissiyanın sədri ümumi yığıncağın ilk iclasında səsvermə hüquqlu üzvlər arasından sadə səs çoxluğu ilə 1 (bir) il müddətinə seçilir.

4.6. Komissiyanın katibinin (bundan sonra – katib) funksiyalarını Nazirliyin əməkdaşı icra edir. Katib iclasların keçirilməsi ilə bağlı təşkilati məsələləri həll edir, zəruri sənədləri hazırlayır və iclaslarda iştirak edir.

4.7. Komissiyanın üzvü olan hər bir təşkilatın ümumi yığıncaqda bir səs hüququ vardır.

4.8. Təşkilatı təmsil edən üzv həmin təşkilatın adından çıxış edir və Komissiyanın iclaslarında verdiyi səs təşkilatın mövqeyini əks etdirir.

4.9. Komissiyanın üzvü olmayan peşə, orta ixtisas və ali təhsil müəssisələrinin nümayəndələri, habelə müstəqil ekspertlər və vətəndaş cəmiyyətinin nümayəndələri Komissiyanın iclaslarına müşahidəçi kimi dəvət edilə bilərlər.

4.10. Komissiyanın iclasları rübdə ən azı bir dəfə Nazirliyin müraciəti əsasında keçirilir. Zəruri hallarda, bütün üzvlərin ən azı üçdə iki hissəsinin, yaxud hər hansı dövlət qurumunun müraciəti və ya Komissiya sədrinin təşəbbüsü əsasında növbədənkənar iclaslar keçirilə bilər.

4.11. Komissiyanın iclasları və məsafədən (elektron poçt, məktub, faks və ya digər vasitə ilə) aparılan məsləhətləşmələr komissiyanın katibi tərəfindən əlaqələndirilir.

4.12. Komissiyanın iclası haqqında və həmin iclasda baxılan məsələlər barədə Komissiyasının sədri və üzvləri katib tərəfindən iclasın keçirilməsindən 15 gün əvvəl xəbərdar edilirlər. Komissiyanın iclasının vaxtı haqqında məlumat və həmin iclasda baxılan məsələlərin siyahısı, onlara aid müvafiq sənədlər və materiallar Komissiyanın üzvlərinə yazılı formada və ya elektron kommunikasiya vasitələri ilə çatdırılır.

4.13. Komissiyanın iclaslarında səsvermə hüquqlu üzvlərin iştirakı vacibdir. Onlar öz səlahiyyətlərini başqa şəxslərə

verə bilməzlər. Komissiyanın səsvermə hüquqlu üzvünün iclasda iştirak etməsi mümkün olmadıqda, müzakirə edilən məsələlər barəsində onun fikri yazılı surətdə təqdim edilə bilər. Komissiya üzvlərinin səsvermədə qiyabi iştirakına yol verilmir.

4.14. Komissiya üzvlərinin azı üçdə ikisi iclasda iştirak edərsə, Komissiya öz səlahiyyətinə aid olan məsələləri həll etmək hüququna malikdir. Komissiya üzvləri səsvermə zamanı bitərəf qala bilməz. Səslər bərabər bölündükdə, Komissiya sədrinin səsi həlledici hesab edilir.

4.15. Komissiyanın səsvermə hüquqlu üzvü qəbul edilən qərarla razı olmadıqda, onun xüsusi rəyi iclasın protokoluna əlavə edilir.

4.16. Komissiyanın iclasları Komissiya sədrinin və katibin imzaladığı protokolla rəsmiləşdirilir.

## 5. Komissiyanın fəaliyyətinin maliyyələşdirilməsi

5.1. Komissiyanın fəaliyyət istiqamətlərinə dair tədbir və layihələr qanunvericiliklə qadağan edilməyən mənbələr hesabına maliyyələşdirilə bilər.

5.2. Komissiyanın fəaliyyəti ilə bağlı maddi-texniki təminat xərcləri “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 19-cu və 20-ci maddələrinə uyğun olaraq İşsizlikdən Sığorta Fondunun vəsaitləri və qanunvericiliklə qadağan edilməyən digər mənbələr hesabına həyata keçirilir.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 5 mart 2021-ci il tarixli **58** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 12 mart 2021-ci il, 55 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 3, maddə 277**)

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

-

---

[1] 5 mart 2021-ci il tarixli **58** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 12 mart 2021-ci il, 55 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 3, maddə 277**) ilə “Bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyalarının tərkibi”nin 1-14-cü bölmələrinin “Üzvlər” hissələrinin dördüncü abzaslarında “**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti**” sözləri “**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi**” sözləri ilə əvəz edilmişdir.